# “Yurd sevdası”nın sədası

## 38-ci Beynəlxalq İstanbul Kitab Sərgisində Sona Vəliyevanın Türkiyə türkcəsindəki kitabının təqdimatı olub

**Noyabrın 2-də 38-ci İstanbul Beynəlxalq Kitab Sərgisinin açılışı olub. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı və İstanbuldakı Baş Konsulluğumuz dəstəyi ilə ölkəmiz sərgidə iki xüsusi stendlə təmsil olunur. Beynəlxalq salondakı milli stend 4 gün, ”Zəngin Yayıncılıq” nəşriyyatı vasitəsilə təşkil olunan Azərbaycan stendi isə 9 gün müddətində fəaliyyət göstərəcək.**

”50-ci illərin ədəbi nəsli” mövzusuna həsr olunan builki kitab sərgisinə xarici və yerli iştirakçılardan ibarət 800-dən çox təşkilat qatılıb. Kitab sərgisinin ”Fəxri yazarı” Adnan Özyalçınerdir. Sərgi çərçivəsində 300 ədəbi-bədii tədbirin, 3 minə yaxın imza günün keçirilməsi nəzərdə tutulur.

Azərbaycan bölməsində Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu və yerli nəşriyyatlar tərəfindən çap olunan ölkəmizin tarixini, mədəniyyətini, multikultural dəyərlərini və dövlətçilik ənənələri əks etdirən 300 adda, 600 nüsxədən çox nəşr sərgilənir. Eyni zamanda, Mədəniyyət Nazirliyinin ”Azərbaycan Kitabının Dünyada Tanıdılması” layihəsi çərçivəsində türk dilinə çevrilən 45 adda Azərbaycan ədəbiyyatı da ziyarətçilərə təqdim edilir.

Azərbaycan bölməsində, həmçinin ”Kaspi nəşrləri” seriyasından ümummilli lider Heydər Əliyevə, Azərbaycan tarixinə, mədəniyyətinə, ədəbiyyat xadimlərinə həsr olunan kitablar da sərgilənir. Azərbaycan dilində və Türkiyə türkcəsində olan bu nəşrlər də ziyarətçilər tərəfindən maraqla qarşılanır. Xatırladaq ki, bu kitablar ”Kaspi” qəzeti və 'Kaspi” Təhsil Şirkəti tərəfindən nəşr edilib.

Milli stenddə quraşdırılmış monitorda ölkəmizin tarix-mədəniyyət abidələri, müasir memarlığı, ədəbiyyat xadimləri, xalq yaradıcılığı və musiqisi barədə videoçarxlar nümayiş olunur.

Sərgi çərçivəsində bölməmizdə Türkiyə türkcəsinə çevrilən Nizami Gəncəvinin ”Xəmsəsi”nin, ”Nesimi İrak Divanı” və Sona Vəliyevanın ”Yurd Sevdası” kitablarının təqdimatı keçiriləcəkdir.

Türkiyənin mədəniyyət və turizm naziri Məhmət Nuri Ərsoy Azərbaycan bölməsini ziyarət edib, ölkəmizin sərgidə yüksək səviyyədə iştirakına görə məmnunluğunu bildirib. Azərbaycan Mədəniyyət Nazirliyinin Kitab dövriyyəsi və nəşriyyatlarla iş şöbəsinin müdiri Aslan Cəfərov Azərbaycan bölməsinin sərgidəki fəaliyyəti, ”Azərbaycan Kitabının Dünyada Tanıdılması” layihəsi barədə Məhmət Nuri Ərsoya məlumat verib və Nizami Gəncəvinin ”Xəmsəsi”ni və Nəsiminin ”İrak Divanı”nı nazirə hədiyyə edib.



Sərgi noyabrın 10-dək davam edəcək. Milli stenddə nümayiş olunan kitabların əsas hissəsi sərginin sonunda ziyarətçilərə paylanılacaq, bir qismi isə Türkiyədəki kitabxanalara hədiyyə olunacaq.

### "YURD SEVDASI"NIN İŞIĞI

Noyabrın 3-də 38-ci İstanbul Beynəlxalq Kitab Fuarında filologiya elmləri doktoru, şair, yazıçı, publisist Sona Vəliyevanın ”Yurt sevdası” kitabının təqdimatı olub. 2019-cu ildə Türkiyənin ”Zəngin yayıncılık” nəşriyyatı tərəfindən 5000 tirajla çap olunan kitabın tərcüməçisi şair-yazıçı Yurtsevən Şəndir. Kitabda Sona Vəliyevanın Qarabağ, vətən, sevgi, millətə inam aşılayan mövzularda, eləcə də ayrı-ayrı fəlsəfi, həyati məzmunlu 100-dən çox sərbəst və heca janrında qələmə aldığı şeiri yer alıb.

Azərbaycan Yazıçılar Birliyinin Gənclər Şurasının sədri, şair Fərid Hüseyn tədbiri açıq elan edib qonaqları, oxucuları salamladıqdan sonra S.Vəliyevanın yaradıcılığı haqqında danışıb: ”Sona Vəliyeva çoxşaxəli yaradıcılığa malik ədibdir. O, Soltan Dadaşov, Əzim Əzimzadə haqqında kulturoloji, Əlimərdan bəy Topçubaşov, İsmayıl bəy Qaspıralı barədə publisistik, Hüseyn Cavid, Məmməd Araz və s. söz adamları haqqında bədii, elmi məqalələr qələmə alıb. Eyni zamanda, Sona Vəliyeva Həsən bəy Zərdabinin həyat yolunu başdan sona canlandıran ”İşığa gedən yol” adlı roman yazıb ki, həmin əsər Azərbaycanda və Rusiyada nəşr edilib, hər iki ölkənin ədəbi elitası bu əsəri yüksək qiymətləndirib. Əsər ölkəmizdə Mətbuat Şurasının Ali Media Mükafatının birinci dərəcəsini qazanıb, eyni zamanda Mədəniyyət Nazirliyinin ”Qızıl kəlmə” mükafatının nəsr nominasiyası üzrə qalibi olub. Sona xanım elmi fəaliyyətində də uğurlar əldə edib, onun Azərbaycançılıq haqqındakı əsərləri - ”Azərbaycançılıq ədəbi-estetik təlim kimi” və ”Milli Dövlətçilik hərəkatının yüksəlişi və xalq cümhuriyyəti dövründə azərbaycançılıq ideologiyası” kitabları dövlətçilik tarixinin mədəniyyət və ədəbiyyatdakı milli ideologiyanın şərhi baxımından əhəmiyyətli və aktual araşdırmalardır. Eyni zamanda, Sona xanım Hüseyn Cavid irsinin araşdırmaçısıdır, ”Hüseyn Cavid sənətinin qüdrəti”, ”Hüseyn Cavid ədəbi irsinin poetikası” adlı elmi əsərləri, monoqrafiyalar yazıb. Ötən il ”Hüseyn Cavid ədəbi irsinin poetikası” mövzusunda elmi iş müdafiə edən Sona xanım filologiya elmləri doktoru adına layiq görülüb. Yaddaş üçün deyim ki, o, həm də ”Hüseyn Cavid - 135”, ”Hüseyn Cavid - Vətənə qayıdış” kitablarını nəşrə hazırlayıb. Sona xanım Hüseyn Cavid irsinin Türkiyə, İran, Özbəkistan, Qırğızıstan və başqa ölkələrdə nəşr etdirilməsi üçün də əlindən gələni əsirgəməyib, indiyə qədər ölkəmizə və onun hüdudlarından kənarda dahi ədibin yaradıcılığına həsr edilən onlarla beynəlxalq konfranslara qatılıb. Bu gün Sona xanım bu kitabın təqdimatına üzrlü səbəbdən qatılmayıb, çünki Özbəkistanın Xivə şəhərində Xarəzm Universitetində Hüseyn Cavidə həsr olunmuş konfransda məruzəçidir.

Sona xanımın İngiltərə, Serbiya, Polşa, İran, Rusiya, Gürcüstan, Özbəkistan və sair ölkələrdə kitabları tərcümə olunaraq nəşr edilib, həmçinin əsərləri haqqında 300-dən çox elmi, publisistik məqalələr yazılıb, həmin yazılar ”Zaman xəbərsiz ötdü”, ”Bitməyən söz”, ”Ruhun yaddaşı” kitablarında cəm olub. Sona xanımın ”Dünya Tanrı biçimdədir” adlı bir kitabı var: Orada şeirlərin mövzu üzrə bölgüsü belədir: ”Tanrı”, ”Söz”, ”Dünya”, ”İnsan”, ”Vətən”. Bildiyiniz kimi, əvvəl Tanrı vardı, sonra Tanrı ”Ol” dedi dünya yarandı, sonra insanlar, nəhayətdə də Vətən anlayışı yarandı. Həmin kitab quruluşu və mahiyyəti etibarı ilə sanki dünyanın yaradılış alqoritminin poetik inikasıdır. Bu gün Türkiyə türkcəsində yayımlanan ”Yurd sevgisi” kitabı da eynən mövzu baxımdan bu cür rəngarəngdir. İnanırıq ki, bu kitab daha geniş oxucu kütləsinə qovuşacaq, rəğbətlə qarşılanacaq. İndiyə qədər Sona xanımın ”Türkün gəlişi”, ”İşığa gedən yol”, ”Bu dünya görüş yerimiz” adlı kitabları da Türkiyə türkcəsində yayımlanıb, bu sıraya daha bir kitabın əlavə olunması da sevindirici haldır”.




Daha sonra Azərbaycanın İstanbuldakı Baş konsulu Mənsim Hacıyev Azərbaycanın İstanbul Kitab Fuarındakı uğurlu fəaliyyətindən söz açdı və təqdimatı keçirilən ”Yurd sevgisi” kitabı haqqında ətraflı danışdı.

Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri, professor Akkan Suver maraqlı nitqi ilə yadda qaldı: ”Hörmətli xanımlar və cənablar, bu gün biz Azərbaycan ədəbiyyatının aydınlıq üzünün göstəricisi olan bir tədbirdə iştirak edirik. Qədim tarixə və çoxəsrlik ənənələrə söykənmiş Azərbaycan ədəbiyyatının yeni və dəyərli nümunələrini kitab halında 38-ci İstanbul Fuarında türkiyəli oxuculara təqdim edilməsinə şahidlik edirik.

Sona xanım həm də Hüseyn Cavid irsini dünyada tanıdılması yolunda böyük zəhmət çəkən, ləyaqət nümunəsi göstərən bir aydındır. Az əvvəl Fərid bəy Sona xanımın şeirlər kitabının quruluşunu dünyanın yaranışı ilə müqayisə elədi, icazənizlə mən də onun məhz aləmlərin bərqərar olunması haqqındakı gözəl bir şeirini sizlərə oxumaq istəyirəm:

***Yer üzü bomboş idi.***
***Mənim qəlbim kimi...***
***Tanrı ”OL” dedi.***
***Sən qarşıma çıxdın...***
***Mən sən ”OL”dum,***
***Sonra meşələr,***
***dağlar,***
***dənizlər,***
***hər şeylər ”OL”du,***
***Belə<br>cə***
***dünya yarandı...***

Doğrudan da, kiçik həcmli bir şeirdə dünyanın yaranışı haqqında dərin bir fəlsəfi dünyagörüş ifadə olunub. Əziz tədbir iştirakçıları, madam ki, sözümüzü şeirlə açmışıq, elə Sona xanımın sevdiyim ”Şeirin rəngi” adlı bir poetik nümunəsi ilə də tamamlayım:

***Bu gecə***
***şeirin rəngini gördüm.***
***Tanrı şeiri***
***ağappaq işıq rəngində,***
***ağappaq yolla,***
***ağappaq təbəssümlə***
***göndərmişdi.***
***Hər sətir ağappaq***
***işıq saçan közdü...***
***İçimə dolduqca***
***yol göründü, yol açıldı.***
***Sonra o yolla söz***
***doğuldu,***
***söz yarandı.***
***Söz vərəqin***
***Üzünü ağartdı,***
***sonra, sonra***
***şeir sözü***
***rənglədi,***
***cilaladı...***
***Sözdən***
***ağappaq almaz,***
***yarandı,***
***asıldı könlümüzdən,***
***gözəlləşdi içimiz.***
***Olanlar, qalanlar,***
***qürbətlər, ayrılıqlar,***
***sevib unudulanlar,***
***kədərdən ağlayanlar,***
***ağappaq işıqla***
***boylandılar şeirdən.***
***Tanrı sətir-sətir***
***Yeni doğulmuş***
***körpə kimi***
***gülümsündü üzümüzə,***
***göndərdiyi***
***işıq töhfəsindən,***
***ağappaq şeirdən...***

**Təşəkkür edirəm!”**

Sonra Azərbaycan Mədəniyyət Nazirliyinin Kitab dövriyyəsi və nəşriyyatlarla iş şöbəsinin müdiri Aslan Cəfərov çıxış edib. O qeyd edib ki, hər il olduğu kimi bu il də İstanbul Kitab Fuarında Azərbaycan kitabına olduqca böyük diqqət var. Stendimizi ziyarət edən çoxsaylı oxucular Azərbaycan müəlliflərinin əsərləri ilə maraqlanır və əldə edirlər. ”Azərbaycan kitabının dünyada tanıdılması” layihəsi əsasında Türkiyə türkcəsinə çevrilən çoxsaylı nəşrlər stendimizə olan böyük marağı daha da artırıb. Builki fuarda biz Nizami Gəncəvinin ”Xəmsə”sinin, İmaddədin Nəsiminin ”İraq divanı” kitablarının da təqdimat mərasimini də keçirdik. Nəfis şəkildə nəşr edilən bu kitablar Türkiyə oxucusu tərəfindən rəğbətlə qarşılandı və layiq olduğu qiyməti gördü. Bu gün də növbəti bir kitabın - ”Yurd sevgisi”nin təqdimat mərasiminə toplaşmışıq. Stendimizdəki nəşrlərə, keçirdiyimiz tədbirlərə olan maraq arzulanan səviyyədə olması bizi sevindirir”.

Sonda onu da qeyd edək ki, Azərbaycan bölməsində, həmçinin ”Kaspi nəşrləri” seriyasından ümummilli lider Heydər Əliyevə, Azərbaycan tarixinə, mədəniyyətinə, ədəbiyyat xadimlərinə həsr olunan kitablar da sərgilənir. Azərbaycan və türk dillərində olan bu nəşrlər də ziyarətçilər tərəfindən maraqla qarşılanır. Bu kitablar ”Kaspi” qəzeti və ”Kaspi” Təhsil Şirkəti tərəfindən nəşr edilib.




**Hazırladı: Xanım Aydın**